# Sözü yaşadan, ucaldan insan

Uzun illərdən bəri tanıdığım, yaradıcılığına, şəxsiyyətinə böyük hörmət, ehtiram bəslədiyim Ağa müəllim sözün dəyərini, çəkisini, siqlətini bilən, onu uca tutan, hörmətdən düşməyə qoymayan nadir qələm adamlarından biridir. Yüksək alicənablığı, əxlaqı, tərbiyəsi, jurnalist etikası, mənəvi zənginliyi, böyük vətəndaşlığı ilə gənc jurnalistlər nəsli üçün əsl məktəb olan Ağahüseyn Abbasəli oğlu Hüseynov 1941-ci il iyunun 30-da Bakı şəhərində ziyalı ailəsində doğulmuşdur. Orta məktəbi bitirən kimi Azərbaycan KP MK-nın Birləşmiş Nəşriyyatında (indiki Azərbaycan nəşriyyatı) mürəttib peşəsini öyrənməyə başlayan gənc o vaxt nəşr edilən "Kommunist" qəzetinin yığı sexində çalışmışdır.

1961-ci ildə Almaniya Demokratik Respublikasında yerləşən sovet ordusu sıralarında hərbi xidmətdə olan Ağahüseyn Hüseynov diviziya qəzeti redaksiyasında çalışmış, nümunəvi xidmətinə görə dəfələrlə komandanlığın fəxri fərmanları ilə təltif edilmişdir.

Ordudan tərxis edildikdən sonra doğma kollektivə qayıdan Ağahüseyn Hüseynov mürəttib peşəsinin incəliklərinə yiyələnərək ən yüksək 8-ci peşə dərəcəsini almağa nail olmuş və 1965-ci ildən "Bakı" axşam qəzetinin yığı sexində çalışmışdır.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika fakültəsinin üçüncü kursunda oxuyarkən mətbuatımızın patriarxı, hamımızın müəllimi, məşhur jurnalist, "Bakı" və "Baku" axşam qəzetlərinin baş redaktoru Nəsir İmanquliyevin dəvəti ilə qəzetdə ədəbi işçi kimi fəaliyyətə başlamışdır.

Qısa müddət ərzində kollektiv arasında böyük hörmət və nüfuz qazanan Ağa müəllim "Bakı" qəzeti redaksiyasının şəhər təsərrüfatı şöbəsinin müdiri təyin edilmişdir.

O vaxt ən populyar qəzetlərdən biri olan və böyük tirajlarla nəşr edilən "Bakı" və "Baku" axşam qəzetlərində Ağa müəllimin şəhər təsərrüfatının ümumi mənzərəsini əks etdirən bir-birindən maraqlı, rəngarəng və kəskin yazıları dərc edilirdi.

Mətbuatda varislik ənənələrinə xüsusi diqqətlə yanaşan Nəsir müəllim kollektivdə çalışan jurnalistlərə xüsusi qayğı ilə yanaşır, hər bir kəsin yaradıcılığını diqqətlə izləyirdi. Ağahüseyn Hüseynovun zəhmətsevərliyi, axtarışları, yüksək yazı mədəniyyəti, təvazökarlığı, intellekti Nəsir İmanquliyevin diqqətindən yayınmırdı. O, Ağa müəllimin xətrini öz övladı qədər çox istəyirdi. Və heç təsadüfi deyil ki, Nəsir müəllimdən yadigar qalan bu qəzetə 1990-cı ildə baş redaktor təyin edilən Ağahüseyn Abbasəli oğlu Hüseynov bütün fəaliyyəti ərzində öz müəllimi və ustadı Nəsir İmanquliyevin arzularını, qəzetin ənənələrini yaşatmağa çalışıb.

Yüksək peşəkarlığı, xeyirxahlığı, nəcibliyi ilə seçilən Ağa müəllimin yaradıcılığını qələm dostları çox yüksək dəyərləndirirlər.

"Günay" qəzetində çalışdığım illərdə Rusiyanın bəzi ermənipərəst mətbuat orqanlarında tez-tez xalqımızın ünvanına təhqir, iftira dolu yazılar dərc edilirdi. O yazılardan bir neçəsinə kəskin cavab yazmış, qəzetdə dərc etdirmiş, Moskvada yerləşən redaksiyalara göndərmişdim. İctimai-siyasi məzmunu ilə seçilən, tarixi ekskurslarla müşayiət olunan, erməni mənbələrinə söykənən bu yazılarda düşmənlərimizin iç üzü açılırdı.

Yazıları böyük ustalıqla rus dilinə Ağa müəllim tərcümə etmişdi. O, həm də mətnin bəzi yerlərinə özünün kəskin, tutarlı əlavələrini etmişdi. Gözlərim qarşısında qısa vaxt ərzində yüksək peşəkarlıqla



və ilhamla tərcümə olunan bu yazılar Ağa müəllimin nə qədər hazırlıqlı biliyə, səriştəyə, ustalığa malik bir qələm adamı olduğunun göstəricisi idi.

Dövlətimiz milli mətbuatımızın inkişafındakı xidmətlərini nəzərə alaraq Ağahüseyn Abbasəli oğlu Hüseynovu Respublikanın əməkdar jurnalisti fəxri adına layiq görmüşdür.

2 dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif edilən Ağahüseyn Hüseynov dəfələrlə Bakı Şəhər Partiya Komitəsinin və Bakı Sovetinin fəxri fərmanlarına layiq görülüb. Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl Qələm" və Həsənbəy Zərdabi adına mükafatlar da Ağa müəllimin halal jurnalist haqqıdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Milli Mətbuatımızın inkişafındakı xidmətlərinə görə Ağahüseyn Abbasəli oğlu Hüseynovu "Tərəqqi" medalı ilə təltif etməsi də istedadlı qələm adamına, tanınmış publisist və tərcüməçiyə verilən yüksək dəyər və qiymətdir.

İstedadlı qələm dostumuz, Respublikanın əməkdar jurnalisti Ağahüseyn Abbasəli oğlu Hüseynovun 75 yaşı tamam olur. Biz əlli ildən çox yaradıcılıq yolu keçmiş, bugünkü gənc jurnalistlərə nümunə olan Ağa müəllimə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**